# İKİNCİ PEŞƏNİN İŞIĞINA DOĞRU...

## Tələbə-rəssamların yaradıcılıq axtarışları haqqında



Ziyadxan Əliyev

**Bəzən insanın həvəslə səhər işə, axşam isə evə tələsməsini onun həyatının xoş və mənalı keçməsi kimi dəyərləndirirlər. Bu, çoxlarını qane edə biləcək bir qənaətdir, amma burada yəqin ki, həmin işin onun icraçısı üçün çox maraqlı olması nəzərdə tutulur. Əks halda, haqqında danışdığımız baş verməzdi. Dediklərimizi ümumiləşdirsək, onda hər bir insana həyatının mənalı görünməsinin onun peşə seçimindən çox asılı olduğunu deməliyik. Bunun əksi baş verəndə isə həmin adamların həyatının necəliyini göz qabağına gətirmək bir o qədər də çətin deyil...**

Bu gün sizə haqqında söz açmaq istədiyimiz dörd gənc tələbə-xanım da zamanında ruhlarında gəzdirdikləri missiyanı sona qədər duymadan peşə seçimi ediblər. Təhsilsonrası bir müddət yiyələndikləri peşədən mənəvi zövq almağa da çalışıblar. Amma nə qədər çalışsalar da, bu zövqü sona qədər ala bilməyiblər. Bu mənada, onların bu il Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rəngkarlıq şöbəsinin tələbəsi adını qazanmaları da iç dünyalarında davam edən qarşıdurmaya birdəfəlik son qoyulmalarının ilkin görüntüsü olmuşdur. Onların yaxın gələcəkdə sənətin heç də asan olmayan çətin yollarında nəyə nail olacaqlarını hələ heç kəs bilmir. Amma onlarla yaradıcılıq emalatxanalarında apardığım söhbətlərdən əmin oldum ki, onlar nə edəcəklərini yaxşı bilirlər. Əks halda, heç də asanlıqla əldə olunmayan ilk peşələrindən uzaqlaşıb, rənglər dünyası ilə baş-başa qalmaqla, enişli-yoxuşlu sənət dünyasını özlərinə "həmdəm" seçməzdilər. Gəlin onlarla tanış olaq...

Röya Həsənova bu dörd nəfərin hamısından daha çox tələbəlik həyatı keçirib. O, əvvəlcə Bakı Slavyan Universitetinin filologiya, sonra Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə-kredit şöbələrində təhsil almış, üç il ixtisasartırma kurslarında oxumuşdur. Onun tədricən formalaşmaqda olan əmək bioqrafiyasında London şəhəri ilə yanaşı, Azərbaycan gömrüyü də yer almışdır. Amma bu illər ərzində o, uşaq yaşlarından onda yaranan rənglərə olan sevgisini bir an belə unuda bilməyib. Axı zamanında hamı Bakıda və Moskvada keçirilən müsabiqələrdə mükafatlar alan Röyanın rəssam olacağını güman edirdi. 2016-cı ildə "ziyan"ın yarısından qayıtmağa qərar verən gənc rəssam bu gün Akademiyada tanınmış fırça ustaları İsa Məmmədov (rəngkarlıq) və Telman Abbasovdan (rəsm) peşəsinin sirlərini öyrənməklə, sənətdə ciddi uğurlar qazanmaq əzmindədir. Onun "Bayram ovqatı", "Düçüncə", "İlğım", "Ana məhəbbəti", "Qız quşla" və s. əsərlərində həyat hadisələrinə səmimi yaradıcı münasibət duyulur. Yağlı boya ilə çəkilmiş bu lövhələrdə məna-məzmun tutumunu rənglərin gücü ilə ifadə etmək istəyi qabarıqdır. Əsərlərinin rəng həllində və bədii şərhində özünə ruhən yaxın hesab etdiyi Q.Klimt, V.Van Qoq və T.Nərimanbəyova xas nikbinlik və ekspressiya duyulmaqdadır...

Əgər Röya Həsənovanın ilk yaradıcılıq uğurları uşaq sərgilərində təsdiqlənmişdisə, Leyla Əzimbəyova isə bunu Bakının ən nüfuzlu sənət məkanında - Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına salonunda etmişdir. Onun elə bu ilin avqust ayında həmin salonda təşkil olunan fərdi sərgisi, əslində, uşaq həkimi peşəsinin rəssamlığa dəyişməsinin səbəbsiz olmadığını təsdiqləmişdir. Həmin sərginin açılışında çıxış edənlər ictimailəşdirdiyi müxtəlif janrlı əsərlərin bədii məziyyətlərindən danışmış, ikinci peşəsinin ona bütün mənalarda uğur gətirəcəyinə inamlarını ifadə etmişlər. Doğrudan da, Leyla xanımın Akademiyaya daxil olmamışdan öncə ərsəyə gətirdiyi əsərlərin estetik tutumunda onun yaradıcı potensialından xəbər verən amillər kifayət qədər idi. Onun Azərbaycanın tanınmış fırça ustası Mircəlil Seyidovla (1948-2009) yaxın qohumluq əlaqəsinin olduğunu biləndə, bu sənətə olan sonsuz marağının əsl qaynağı mənə bəlli oldu. Yəqin ki, bu gün onun qətiyyət göstərib peşəsini əvəzləməsində - dünyaya gözəllik qanunları prizmasından baxmağa qərar verməsində mərhum qohumunun birbaşa təsiri olmasa da, zamanında ondan rənglərə sevgini əxz etməsi birmənalıdır. Həm təhsil öncəsi, həm də Akademiyada oxuduğu dövrdə işlədiyi lövhələrdə də Leyla xanımın gerçəkliyi fərdi bədii vasitələrlə duymaq və ifadə etmək istəyi qabarıq duyulmaqdadır. Gənc rəssamın dəfələrlə vəsf olunmuş Naxçıvan torpağına, onun özündə "kişi gözəlliyi"ni yaşadan təbiət motivlərinə bədii münasibətində məlum obyektlərə fərqli yaradıcı yanaşma hiss olunmaqdadır. Belə ki, Leyla xanımın "İlandağ", "Naxçıvan", "Mömünə xatun", "Kənd mənzərəsi" və s. lövhələrində Bəhruz bəy Kəngərli yurdunun təbiətinə xas özəl gözəllik qaynaqları özünəməxsus bədii-estetik tutumdadır. Bu fərqliliyi onun digər janrlarda işlədiyi kompozisiyalarda da müşahidə etmək mümkündür. Daha çox əsərlərində ekspressivlik duyulan P.Sezann və V.Van Qoqun əsərlərinə baxmaqdan usanmayan gənc rəssamın ərsəyə gətirdiyi işlərdə də təsvirə duyulası oynaqlıq bəxş edən yaxı-cizgi dinamikliyi duyulmaqdadır. Arzusu təhsil illərində qazanacağı bədii-texniki vərdişləri doğma yurdun uzaq-yaxın keçmişinə, xüsusilə də, ölməz Əcəminin həyatı ilə bağlı əsərlərin yaradılmasına yönəltməkdir...

Nigar Familsoy da Röya Həsənova kimi iqtisadçı peşəsini rəssamlığa "qurban" verib. Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu" şöbəsini bitirsə də həmişə içində dünyanın gözəlliklərini rənglərlə ifadə etmək istəyi gəzdirib. Tükənməyən arzularına bədii görkəm verə bilmək üçün tanınmış rəssam S.Səmədova və E.Qəhrəmanovdan dərs də alıb. Rənglərə başbaşa qalmaqla, "gəlimli-gedimli" dünyamıza özünəməxsus bədii münasibət göstərmək istəyinin bir an belə ölməməsi onun rəssamlıq sahəsində bitkin təhsil almasını şərtləndirmişdir. Sona çatmaqda olan birinci semestrin görünən nəticələrinə rəğmən demək olar ki, o, bitib-tükənməyən arzularına doğru qətiyyətlə irəliləməkdədir. Nigar xanımın "Tikiş maşını" və "Qədim şəhər" lövhələrindəki bitkinlik elə ilk baxışdan duyulur. Azman ağacın altında qərarlaşan dərzinin özü görünməsə də, onun bir anlığa ayrıldığı köhnə tikiş maşının görkəmində və hələ tikilməkdə olan parçanın bir-biri ilə əlaqəli təqdimatında qəribə bir nisgil var... yaşanmışları xatırlatmaq istəyi. Qənaətimizcə gənc rəssam bu yaşantını həm rəng, həm də bədii şərhin özünəməxsusluğu ilə tamaşaçıya çatdıra bilib. Onun şəhər mənzərəsini əks etdirən digər lövhəsində də tarixi məkana gözlənilməz baxış mövcuddur. Məhz belə bir baxışın nəticəsində çoxlarının gözündə adiləşən qədim şəhər kifayət qədə cəlbedici və duyğulandırıcı görünməkdədir...

İ.Məmmədov və T.Abbasovun sinfində ikinci peşəyə yiyələnən dördüncü xanım Günay Bəylərovadır. Digər üç nəfərdən fərqli olaraq onun birinci peşəsi rəssamlığa daha yaxın olmuşdur. Belə ki, o, elə 2016-cı ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının sənətşünaslıq fakültəsini bitirmişdir. Heç şübhəsiz onun zamanında sənətşünaslığa gəlişində rəssamlığa olan sonsuz sevgisinin az təsiri olmayıb. Odur ki, onun altı illik fasilədən sonra rəssamlığın sirlərinə dərindən yiyələnməyə qərar verməsində bir məntiq vardır. Qənaətimizcə, o, bu iki sahənin-peşənin qovşağını əldə etməklə, yaddaqalan işlər görə bilər. Bir sözlə, onu maraqlı axtarışlar gözləyir. Təhsil dövründə ərsəyə gətirdiyi işlərə gəldikdə isə, demək lazımdır ki, onlar bir çox hallarda tələbə işləri çərçivəsinə sığışmır. Daha çox mövzunun fəlsəfi təfsirinə çalışan müəllif, bununla də kompozisiyaların düşündürücülüyünə nail olmuşdur. Onun "Bayram ovqatı", "Müqəddəslər", "İblis", Zühur", "Çeşmə" və s. əsərləri bu qəbildəndir...

Əgər incəsənətimizin uzaq-yaxın tarixini vərəqləməli olsaq, onda fəaliyyətində ilkin peşələrilə yanaşı özünün həm də ruhunda gəzdirdiyi yaradıcı keyfiyyətini - Tanrı ərməğanını uğurla birləşdirən neçə-neçə soydaşımızın adını çəkə bilərik. Haqqında söz açdığımız bu xanımlar da həmin ənənənin davamçılarıdır. Rəssam olmaq arzusu ilə yaşayan bu gənclərdə yaratmaq eşqinin güclü olmasının, ruhlarında sənətə yüksək ehtiramın mövcudluğunun nəticəsidir ki, bu gün sənət dünyasında - rənglərlə baş-başadırlar. İnanırıq ki, onların cəmiyyətimizdə həkimdən, iqtisadçıdan və sənətşünasdan daha çox rəssam kimi tanınacaqları gün də uzaqda deyil. Gördüyümüz yaradıcılıq nümunələrinə rəğmən demək olar ki, ikinci peşənin "işığı"na bələnən bu gənclər sənətin çətin yolu ilə inamla addımlamaqla, nə vaxtsa yiyələndikləri ilk peşənin daşıyıcısı olduqlarını hamıya unutdurmaq əzmindədirlər Bu yolda onlara uğurlar arzulayırıq...



İ.Məmmədov və tələbələri



G.Bəylərova - "İblis"



L.Əzimbəyova- "Məişət motivi"



R.Həsənova "Ana məhəbbəti"



N.Familsoy - "Qədim şəhər"